

# Böyük qayıdışın modern yolları

## Qarabağ və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq Füzuli-Ağdam avtomobil yolunun tikintisi sürətlə davam etdirilir



**Şanlı Zəfərimizlə bitən Vətən müharibəsindən ötən 1 il 9 ay ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında geniş tikinti-quruculuq işləri həyata keçirilməkdədir. Əlbəttə ki, bu ərazilərdə hərəkətin tənzimlənməsi üçün ilk növbədə yolların yenidən qurulması, körpü və tunellərin tikintisi xüsusi əhəmiyyət daşıyır. Həm bərpa-quruculuq işlərinin intensivləşdirilməsi, həm də tranzit-logistik baxımdan yolların inşası təxirə salınmadan həyata keçirilir.**







Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların təməlini qoyur və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir. Hazırda dövlət büdcəsindən ayrılmış vəsait hesabına işğaldan azad edilmiş ərazilərimizdə 14 avtomobil yolunun tikinti işləri davam edir.

Tikintisi cəmi bir ilə həyata keçirilən Zəfər yolu ilə indi ölkə vətəndaşları, xarici qonaqlar Şuşaya rahat səfər edə bilirlər.

Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən 101 kilometrlik Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla bu rayonların onlarca yaşayış məntəqəsini əhatə edir.

Bu layihə həm də ona görə müstəsna əhəmiyyət daşıyır ki, layihə ilk növbədə öz doğma yurdlarına qayıdacaq insanların rahatlığının təmin olunmasına, onlar üçün yüksəksəviyyəli həyat və yaşayış standartlarının yaradılmasına xidmət edir.

Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərimizdə inşa edilən 14 avtomobil yolunun 7-nin tikinti işlərinin bu il başa çatdırılması gözlənilir. Hazırda bütün yollarda tikinti işləri sürətlə davam etdirilir. Bu yollardan biri də Füzuli-Ağdam yoludur.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2021-ci il oktyabrın 17-də Füzuli rayonuna səfəri zamanı təməli qoyulan bu avtomobil yolunun inşa prosesi sürətlə aparılır. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən qəzetimizə bildiriblər ki, bu yol Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan, işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biri sayılır.

Uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək yol dörd hərəkət zolaqlı olmaqla tikilir. Yol çiyinlərinin eni hər bir istiqamətdə 3,75 metr, ayırıcı zolağın eni 2 metr olmaqla yol yatağının eni 26,5 metr təşkil edir. Birinci texniki dərəcəli olacaq yolda layihə üzrə 380 metr uzunluğunda istinad divarının inşası da aparılır.

Hazırda Ağdam-Füzuli avtomobil yolunda torpaq işlərinin icrası çərçivəsində yararsız qruntun çıxarılması, yatağın genişləndirilməsi, 26,5 metr enində yeni yol yatağının, yol yatağı hazır olan hissələrdə yol əsasının tikintisi, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri davam etdirilir. Artıq yolun 59,3-64,8-ci kilometrlik hissəsində yol əsasının tikintisi yekunlaşmaq üzrədir.

Yol boyunca müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin tikintisi aparılır. Bundan başqa, layihə üzrə nəzərdə tutulan yolun 0,2, 5,7, 37 və 63-cü kilometrlik hissələrində 4 avtomobil körpüsünün inşası da davam edir. Körpülərdə svay, betonlanma və dayaqların tikintisi işləri icra olunur.

Tikinti işləri Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən "İnşaat Norma və Qaydaları"nın tələblərinə uyğun qaydada həyata keçirilir. Tikintinin tərtib edilmiş qrafikə uyğun olaraq 2023-cü ilin sonunadək yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Bərdə-Ağdam avtomobil yolunun davamı olan Ağdam-Füzuli avtomobil yolu Ağdam, Ağcabədi, Füzuli rayonlarının ərazisindən keçir. Yolun inşası Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks-istiqamətdə rahat gediş-gəlişi təmin edəcək, yolboyu sosial-iqtisadi inkişafa müsbət təsir göstərəcək.

Bir sözlə, əksər yolların tikintisi prosesi yüksək sürətlə davam etdirilir. Əminliklə deyə bilərik ki, tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

İkinci Qarabağ müharibəsindəki şanlı qələbədən sonra yaranan yeni reallıq göz önündədir. Qarşıya qoyulan birnömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaqdır. Tezliklə bu yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 11 sentyabr.- S.4.